# "Art Weekend" çərçivəsində Milli İncəsənət Muzeyində sərgi açılıb

"Bakıya Uçuş. İncəsənət Həftəsonu. Gələcəyi İNDİ Duy" layihəsi çərçivəsində oktyabrın 30-da Milli İncəsənət Muzeyində Azərbaycan rəngkarlığının görkəmli nümayəndələrindən biri, nonkonformist rəssam Tofiq Cavadovun anadan olmasının 100 illiyi münasibətilə "Yarımçıq qalmış ömür" adlı retrospektiv sərgi açılıb.



AZƏRTAC xəbər verir ki, sərgi Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən təşkil edilib.

Tədbirin açılışında Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, sərginin kuratoru Şirin Məlikova çıxış edərək bildirib ki, Tofiq Cavadovun yaradıcılığı öz dövrünün sənət axtarışlarını, modern düşüncə tərzini əks etdirir.

Onun sözlərinə görə, sərgidə rəssamın müxtəlif yaradıcılıq dövrlərini əhatə edən əsərlər nümayiş olunur. Onların bir qismi ilk dəfə olaraq məhz Milli İncəsənət Muzeyində təqdim edilir.

Şirin Məlikova qeyd edib ki, ziyarətçilər bir ay müddətində Muzeydə Tofiq Cavadovun yaradıcılıq dünyası ilə yaxından tanış ola biləcəklər.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov çıxışında Tofiq Cavadovun yaradıcılığını Azərbaycan təsviri sənətinə yeni baxışın başlanğıcı kimi dəyərləndirərək deyib: "O, klassik ənənələri qorumaqla yanaşı, müasirlik duyğusunu da sənətinə gətirə bilmişdi. Onun hər bir əsərində həyatın dərin mənasını, insanın daxili aləmini duymaq olur. Onun sənəti bu gün də gənc rəssamlar üçün ilham mənbəyidir".

"Bakı İncəsənət Mərkəzi" Yaradıcılıq Birliyinin baş direktoru, incəsənət tədqiqatçısı Rafael Gülməmmədli diqqətə çatdırıb ki, Tofiq Cavadov yaradıcılığında milli kimliyi, modern düşüncə tərzini və avanqard üslubu birləşdirməyə çalışırdı.

Onun sözlərinə görə, Tofiq Cavadovun yaradıcılığının əhəmiyyətli bir hissəsi Abşeron rəssamlıq məktəbi ilə bağlıdır.

Sonra qonaqlar "Yarımçıq qalmış ömür" adlı retrospektiv sərgi ilə tanış olublar.

Ekspozisiyada rəssamın müxtəlif illərdə yaratdığı rəngkarlıq və qrafika nümunələri (o cümlədən kitab qrafikası, eskiz və s.) nümayiş olunur. Bu əsərlər Azərbaycan Milli İncəsənət Muzeyindən, Azərbaycan Dövlət Rəsm Qalereyasından, Bakı İncəsənət Mərkəzindən, həmçinin şəxsi kolleksiyalardan toplanaraq tamaşaçılara təqdim olunur.

Tofiq Cavadov 38 yaşında vəfat etsə də, sənətkar kimi müxtəlif muzey və şəxsi kolleksiyalarda yer alan qiymətli bədii irs qoyub. Bu irsin bir hissəsi - həm rəngkarlıq, həm də qrafika nümunələri indiyədək geniş ictimaiyyətə məlum deyildi.

Tofiq Cavadov yalnız rəssam kimi deyil, həm də kitab illüstratoru kimi tanınırdı. "Yarımçıq qalmış ömür" sərgisində onun kitab qrafikasına aid əsərləri multimedia formatında interaktiv təqdim olunur.

Qeyd edək ki, ötən il ərzində Azərbaycan Milli İncəsənət Muzeyi Tofiq Cavadovun iki əsərini - "Bakıda küçə" (1957) adlı rəngkarlıq əsərini və "Analıq" (1960-cı illər) adlı qrafik işini əldə edib. Həmçinin Dövlət Rəsm Qalereyasının kolleksiyasına daxil olan "Tökmə sexi" tablosunun bərpası təşəbbüsünü irəli sürüb.

Sərgidə rəssamın yaradıcılığının müxtəlif dövrlərinə aid əsərlər ilk dəfə bir ekspozisiyada birləşdirilib, bu da tamaşaçılara və sənətşünaslara rəssamın yaradıcılığına yeni baxış imkanı yaradır.

Azərbaycan. - 2025.- 31 oktyabr (№233).- S.8.